

# Duyğuların üsyanı

Nərgiz MƏHƏRRƏMZADƏ

Qış. Həyətdə şaxtadı. Bizə isə, qəribədi, heç dəxli yoxdu bu soyuğun. Bizə... istidi, qəlblərimizi isidən, işıqlandıran sevgimiz var çünki. Qəlbimizdə yazdı və bütün dünya al-əlvan rənglərə boyanıb gözümüzdə.

Evimin yaxınlığında, maşında oturmuşuq. Bura elə bir yerdi ki, nadir hallarda maşına, adama rast gələrsən, amma hərdən uşaq arabasında körpəsini gəzdirən gənc analar gözə dəyir.

Körpəylə gəzinti... Nə maraqlı məşğuliyyətdi. Tezliklə məni də,.. elə hər ikimizi bu gözəl məşğuliyyət gözləyir. Bunları yaza-yaza gülümsəyirəm, elə o gözəl gündəki kimi... O gün ki, səninlə birgə necə valideyn olacağımızı xəyalımızda canlandırırdıq; sən necə gözəl ata olacaqsan, mən necə körpəsini sevib-əzizləyən, daim başı üstündə dayanan fədakar ana...

Söhbətdən uzaqlaşdım, deyəsən... Həmin yolda, daha doğrusu, yolumuzun üstündə qıvrım telli, iri bir əncir ağacı da vardı, şipşirin Bakı ənciri.

Sevgimizin şahidi olan bu qıvrım telli ağac da sanki hərdən gülümsəyir, bizim tükənməz xoşbəxtliyimizə sevinirdi. Ah! İlahi, biz necə də xoşbəxt idik o zamanlar, lap yuxulardakı kimi... Yox, bu, reallıq idi, ürəklərimiz bir ahənglə döyünürdü – bir musiqi ladında eyni vaxtda səslənib bir-birinə qarışan iki səs kimi... Dəli sevgimizə və sevgimizin bəxş etdiyi o şirin rahatlığa amansız şaxta da mane ola bilmirdi. Sənin maşınının oturacaqlarındakı adi qızdırıcılar sanki bir cənnət yaratmışdı dəlicəsinə sevən, “fast food”u zərərini belə düşünmədən acgözlüklə udan bizlər üçün...

Bütün bunların hamısının öz ləzzəti vardı. Bəzən mənası belə olmayan zarafatlarımız, gülüşlərimiz xoşbəxtliyimizi tamamlayırdı sanki. Düz deyirlər, sevənlərin ən mənasız zarafatları belə bir-birində qəhqəhə doğurur.

Həə, belədi sevənlər, gələcək haqda heç düşünmürlər də, heç nəyi ehtimal etmirlər, zamana baxmadan, bu günlə yaşayırlar.

Hər şey necə də gözəl idi bizimçün. Qorxurduq, gizlənirdik valideynlərimizdən. Amma nə olsun, bu gizlənmələrin özü də münasibətlərimizə saf, təmiz, parlaq rənglər bəxş edirdi.

Təmiz hisslərimiz, duyğularımız vardı. Nəbzimiz vurduqca bu ülvi hisslər qəlbimizə axıb dolur, bütün hüceyrələrimizə hakim kəsilirdi.

Nələr oldu tanışlıq dövrümüzdə, nə qədər isti, ılıq xatirələrimiz var. Heyif... Hamısı keçmişdə qaldı!

Yox, mən keçmiş xatirələrlə yaşayan, tez-tez ötənləri xatırlayan adamlardan da deyiləm. Mənə indiki – yaşadığım zaman maraqlıdı. Gələcəyi isə arzu, xəyal, ilğım kimi görürəm. Bircə istisna var amma, sənli günlərimi, xoşbəxt çağlarımı qaytarmaq istəyirəm həmişə. Yalnız bu zaman kəsiyini, yalnız! Bir şərtlə, sən də o olacaqsan: mənim sevdiyim, məni sevən... Daha ailə həyatının, nikahın dəyişdirdiyi... yox! Bəlkə də, hər şeyi yenidən başlamaq istərdim, amma yenə səninlə...

Sənin dediklərini xatırlayıram: “Nikah, ailə-məişət xırdalıqları gül-çiçək ətirli, zərif meyvə təravətli münasibətləri məhv edir...”

O günlər isə... O günlər indi yoxdu...

Ayrılıqdı indiki günlərin adı, məsuliyyət qarşısındakı qorxudu, xəyanətdi, antipatiya, bəlkə də, dərin nifrətdi...

Həyat çox qəribədi... bir vaxtlar necə çətiniydi mənə səndən ayrılıb evə gəlmək, bir gün də sənsiz qala bilməzdim, gün nədi, bir saat belə səndən ayrıla bilməzdim. Əgər görüşə bilməsək, mütləq telefondan asılı qalırdım,.. “Skype”, “WhatsApp”... Elə bu hissləriydi, bəlkə də, məni nikaha təhrik edən, evliliyin ciddiyyətini dərindən düşünmədən...

Özümü bir an belə ayrı təsəvvür edə bilmədiyim adam, işə bax, indi keçmişdə qalıb. Hər ötən dəqiqəm sənsizlikdi indi, sənin qəlbimin ən qaranlıq guşələrinə nüfuz edən isti baxışlarından, fantastik ideyalarla dolu xeyirxah qəlbindən, mənə sevgiylə baxan məhrəm gözlərindən uzağam.

Bizim görüşümüz bir səhv idimi? Onu gənclik adlandıraq, amma səhv yox, qətiyyən yox!

Peşmanammı? Əlbəttə, yox. Sən mənim həyatımın ən gözəl səhifəsisən axı, balamın atasısan, gözəl balamın, artıq birlikdə böyüdə bilmədiyimiz balamın... Biz onsuz da həmin valideynlərik, sən – gözəl ata, mən – fədakar ana, o vaxtlar arzuladığımız kimi. Fərq ondadı ki,..

Fərq... mənim səninlə ayrılmağımdadı.

Bir də qaçılmaz bir reallıq var, mənə ağırdı demək, amma sən qorxaqsan!

... Yenə qış. Küçədə şaxta. Yeni evimizin pəncərəsindən yenə həmin yola – adamların, maşınların tək-tük göründüyü yola baxıram. Hərdən mən də adamların, maşınların tək-tük göründüyü yolda körpəmi gəzdirirəm uşaq arabasında. Gənc ana kimi.

Arzumuz həyata keçib, biz valideyinik. Mən elə xoşbəxtəm ki...

Xatirələrsə dolanır və üzümdəki təbəssüm şıltaqlıqla uzaqlaşıb gedir. Göz yaşları... məyusluq dolu göz yaşları yuvarlanır üzü aşağı...

Qıvrım telli əncir ağacı isə indi heç də şən deyil. O, mənim sakit daxili üsyanımın şahididi indi...

Nədən?!



*Ruscadan tərcümə edən:*
**Hicran HÜSEYNOVA**